**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 89 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsindən Səpnəkəran bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hüseynov Bəhmən Əbdül oğlu və Mustafayev Nurəddin Paşa oğlu 1 yanvar 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin dairənin 11 və 12 saylı seçki məntəqələri üzrə dairə seçki komissiyası tərəfindən səslərin yenidən hesablanması zamanı pozuntulara yol verildiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Aparılmış araşdırma ilə müəyyən edilmişdir ki, qeydə alınmış namizəd Hüseynov Bəhmən Əbdül oğlunun Mərkəzi Seçki Komissiyasına müraciəti əsasında komissiya tərəfindən 76 saylı Lənkəran-Astara seçki dairəsinin 11 və 12 saylı seçki məntəqələri üzrə səslərin yenidən hesablanması barədə qərar qəbul edilərək müvafiq dairə seçki komissiyasına göndərilmişdir. Dairə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim olunmuş 28 dekabr 2014-cü il tarixli 24/63 saylı qərardan müəyyən edilir ki, həmin tarixdə dairə seçki komissiyası Səpnəkəran bələdiyyəsinə qeydə alınmış namizədlər Hüseynov Bəhmən Əbdül oğlu, Mustafayev Nurəddin Paşa oğlu, Babayev Şaddıq Əli oğlunun və müşahidəçilər Məmmədov Şöhrət Xudaverdi oğlu, Əhmədov Surət Əsəd oğlu və Suvarov İlqar Cəsarət oğlunun iştirakı ilə 11 və 12 saylı seçki məntəqələri üzrə səslərin yenidən hesablanmasını aparmışdır. Səslərin yenidən hesablanması ilə müəyyən edilən nəticələr həmin məntəqələr üzrə 23 dekabr 2014-cü il tarixdə keçirilmiş səsvermənin nəticələrinə dair tərtib edilmiş protokollardakı məlumatlarla eynilik təşkil etmişdir. Səslərin yenidən hesablanması ilə bağlı tərtib edilmiş protokolların və qəbul edilmiş qərarın surətləri maraqlı şəxslərə təqdim edilmişdir.

Araşdırma prosesində səslərin yenidən hesablanmasında iştirak etmiş müşahidəçilər Məmmədov Şöhrət Xudaverdi oğlu, Əhmədov Surət Əsəd oğlu və Suvarov İlqar Cəsarət oğlundan alınmış izahatlarda göstərilir ki, 11 və 12 saylı seçki məntəqələrində səslərin yenidən hesablanması prosesində hər hansı qanun pozuntusuna yol verildiyini müşahidə etməmişlər, səslərin yenidən hesablanması ilə müəyyən edilən nəticələr əvvəlki nəticələrlə üst-üstə düşmüşdür.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması nəticəsində həmin seçki dairəsi üzrə 11 və 12 saylı seçki məntəqələrində səslərin yenidən hesablanması prosesində dairə seçki komissiyasının hərəkətlərində qanun pozuntusuna yol verilməsi müəyyən olunmamışdır. Müraciətdə göstərilənlər öz təsdiqini tapmadığından, müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin

verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsindən Səpnəkəran bələdiyyəsinə qeydə alınmış namizədlər Hüseynov Bəhmən Əbdül oğlu və Mustafayev Nurəddin Paşa oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 89 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |